

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.
Heydər ƏLİYEV


# FÖVQƏLADƏ HALLAR

Nazirliyinin qəzeti

Newspaper of MES    Газета МЧС

№ 17 (615)  11 may  2019-cu il   Qəzet 2006-cı il iyunun 15-dən çıxır   www.fhn.gov.az/newspaper/


# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.***

AZƏRTAC xəbər verir ki, xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

# Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib



***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oistervijk şəhərinin meri Hans Janssen ilə görüşdülər.

Sonra dövlətimizin başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər



***Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni, o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu kommunist partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni, bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də Ulu Öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. “Əsrin kontraktı”nın imzalanması əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir - insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə “Əsrin kontraktı” yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni, bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr onu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə müəyyən edir.

**(Ardı səhifə 2-də)**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

**(Əvvəli səhifə 1-də)**

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni, bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur və biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən dünya miqyasında ordu potensialına görə 50 ölkə arasındadır. Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan böyük dərəcədə asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsinlər və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, ilk neftdən Azərbaycan Dövlət Neft Fonduna daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər yüzdən çox şəhərcik salınıb, 100 minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Biz bu illərdə digər sosial layihələri uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni, islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait, sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə ki, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15-20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir və biz buna hazır olmalıyıq. Ona görə hər bir məsələ ilə bağlı biz çox operativ və çevik fəaliyyət göstərməliyik və göstəririk. Ölkəmizin maraqlarını müdafiə etməliyik. Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Ancaq deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur, ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni, sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza 1990-cı illərin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı 1990-cı illərdə bərbad vəziyyətə qoydular, həmin dəstələr yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin dörd ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu, bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, Ulu Öndərin doğum günü ərəfəsində ilk DOST Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır. Necə ki, vaxtilə "ASAN xidmət" mərkəzi ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan "ASAN xidmət"dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda Fərman imzalanıb. İndi əməli işlər aparılır ki, Fərmanın icra edilməsinə başlansın. Bu da bir ciddi islahat olacaq. İcbari-tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilibdir və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaq. Bu, həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz qabağa baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar var.

Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni, ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni Fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun!

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı Sərəncamı oxundu.

Prezident İlham Əliyev Heydər Əliyev Mükafatının akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi.

***

Daha sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2019-cu il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Almaniya Münxen Yeni Filarmoniyasının Simfonik Orkestrinin baş dirijoru, Əməkdar artist Fuad İbrahimova və Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatlarını təqdim etdi.

Mərasim bədii hissə ilə davam etdi.

# Fövqəladə Hallar Nazirliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tədbir keçirilib

***Fövqəladə Hallar Nazirliyinin inzibati binasında mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dahi öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.***








Əvvəlcə, nazirliyin kollektivi Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül-çiçək dəstələri qoyublar.

Sonra Fövqəladə Hallar Nazirliyinin inzibati binasında keçirilən tədbir Dövlət himninin səslənməsi ilə başlanıb.

Tədbiri giriş sözü ilə açan Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərov müstəqil Azərbaycanın memarı və qurucusu, dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevin adının tariximizə qızıl hərflərlə yazıldığını diqqətə çatdıraraq, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrün dövlətçilik tariximizin ən şanlı səhifələrindən olduğunu deyib. Nazir bildirib ki, hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə Dahi Öndər xalqımızın mənafeyini hər şeydən yüksək tutub, respublikamızın çiçəklənməsi üçün mütərəqqi addımlar ataraq böyük uzaqgörənlik və müdrikliklə Azərbaycanın gələcək müstəqilliyinə əsaslı zəmin yaradıb. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkəmizi xaos, anarxiya və özbaşınalıqdan xilas edib. K.Heydərov deyib ki, Azərbaycanı qardaş qırğını və məhv olmaq təhlükəsindən qoruyan, dövlətçilik ənənələrini bərqərar edən Ulu Öndərin müdrik uzaqgörənlik və qətiyyətlə müəyyən etdiyi mütərəqqi siyasi kurs sayəsində ölkəmiz qısa müddətdə davamlı və sürətli inkişaf yoluna çıxdı. Məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf konsepsiyası Azərbaycanın bu gün dünyanın sayılıb-seçilən ölkələrindən birinə çevrilməsinə şərait yaradıb.

Nazir vurğulayıb ki, Heydər Əliyev siyasi kursu bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bunun nəticəsidir ki, regionun liderinə çevrilmiş ölkəmiz dünya birliyinin layiqli üzvü kimi regional və qlobal əhəmiyyətli layihələrin reallaşdırılmasına əvəzedilməz töhfələr verir. Ölkə başçısının müdrik uzaqgörənliklə atdığı addımlar, bilavasitə təşəbbüsü ilə həyata keçirilən tədbirlər, reallaşdırılan mütərəqqi islahatlar sayəsində ölkəmiz durmadan inkişaf edir, qlobal təlatümlərdən uğurla yan keçir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən ətraflı bəhs edib. O, bildirib ki, Heydər Əliyev zamana qalib gəlməyi bacaran dahi və nadir şəxsiyyətlərdəndir. Qəlbi hər zaman Azərbaycanla döyünən Ümummilli Lider fəaliyyətinin bütün dövrlərində xalqımızın yüksək rifahı, işıqlı gələcəyi, inkişafı naminə var gücü ilə çalışıb. Qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq Ulu Öndərin müəyyən etdiyi mütərəqqi daxili və xarici siyasətin nəticəsidir ki, Azərbaycan bu gün mürəkkəb geostrateji məkanda yerləşməyinə baxmayaraq, öz yüksək inkişaf templərini qoruyur. Sabitlik, əmin-amanlıq, davamlı inkişafın bərqərar olduğu ölkəmizdə əldə olunan bütün uğurların əsası olan bu siyasi kurs möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilir. Ölkəmizin son illər əldə etdiyi uğurlar onu deməyə əsas verir ki, Ulu Öndərin şah əsəri olan müasir Azərbaycan etibarlı əllərdədir.

Tədbirdə yekun nitqi ilə çıxış edən nazir K.Heydərov qeyd edib ki, bu gün həm də Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyi tamam olur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında uğurla fəaliyyət göstərən Heydər Əliyev Fondu ötən dövrdə Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərib. Müxtəlif problemlərin, o cümlədən baş vermiş ayrı-ayrı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında, çıxılmaz vəziyyətə düşmüş insanlara hərtərəfli yardımların göstərilməsində və s. istiqamətlərdə gördüyü çoxşaxəli fəaliyyəti sayəsində bu gün Heydər Əliyev Fondu xalqın dərin sevgisini qazanıb. Nazir nümunə olaraq bu ilin fevral ayının 5-də və 6-da baş vermiş zəlzələ nəticəsində Ağsu, Şamaxı və İsmayıllı rayonlarında zərər çəkmiş evlərin və sosial təyinatlı obyektlərin tikinti və bərpası ilə bağlı Fondun gördüyü böyük işləri qeyd edib. O, bütün qeyd olunanlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya Fövqəladə Hallar Nazirliyinin kollektivi adından dərin təşəkkürünü bildirib.

# Heydər Əliyev: böyük dövlət xadimi, siyasət nəhəngi, tarixi və əfsanəvi şəxsiyyət

***Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin irsi olduqca zəngindir. Onun həyat fəaliyyətində ibrətverici məqamlar kifayət qədərdir.***

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlər minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olub.

Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, böyük istedada, parlaq zəkaya, ali mənəvi keyfiyyətlərə, yüksək siyasi idarəçilik və liderlik qabiliyyətinə, tükənməz enerjiyə malik Heydər Əliyevin sosial-iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olub. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı ümummilli liderin adı ilə bağlı olmasın.

İstər 1969-1982-ci illərdə, istərsə də ikinci dəfə müstəqilliyimizə qovuşduğumuz dövrdə Azərbaycanın yanğın təhlükəsizliyi qurumları da Ulu Öndərimizin qayğısı ilə inkişaf edib. 1970-ci illərdə Azərbaycanın yanğından mühafizə orqanlarının da kadr bazasının möhkəmləndirilməsi, milli kadrlarla təmin edilməsi istiqamətində təqdirəlayiq işlər görüldü. 1970-ci ilə qədər SSRİ-nin müxtəlif şəhərlərində yanğından mühafizə orqanları üçün mütəxəssislər hazırlayan xüsusi məktəblərdə azərbaycanlılar məhdud sayda təhsil alırdılarsa, Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövründə bu sahədə mənzərə tamamilə dəyişdi. Azərbaycanın yanğın təhlükəsizliyi orqanlarında əvvəlki illərdən fərqli olaraq məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün illərdə respublikamızın yanğından mühafizə sisteminə milli kadrlar rəhbərlik etdi, yerli strukturlarda azərbaycanlılar rəhbər vəzifələrə irəli çəkildi.

Nefti milli sərvətimiz adlandıran Heydər Əliyev Azərbaycana birinci rəhbərlik dövrünün ilk illərindən bu mühüm strateji sahənin inkişafı qayğısına qalır, Azərbaycan rəhbəri neft sənayesinin yanğın təhlükəsizliyini də diqqət mərkəzində saxlayır, bu sahədə baş verən yanğın hadisələrini izləyir, onların başvermə səbəblərini təhlil edirək yanğınların qarşısının alınması ilə bağlı dəyərli təkliflər verir, əməli köməkliklər göstərirdi.

1971-ci il oktyabrın 20-də indiki "Azərneftyanacaq" İstehsalat Birliyinin 7-ci rezervuar stansiyasının 3-cü sexində güclü yanğın zamanı Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev də hadisə yerinə gəldi, ən çətin şəraitdə, ən ekstremal vəziyyətlərdə ən düzgün çıxış yolunu tapmaq, zəruri qüvvələrin müəyyənləşdirilərək problemin həllinə cəlb etmək, təəccüb doğuran yüksək təşkilatçılığı ilə çoxlarının görə bilmədiyi imkanları da səfərbər etmək qabiliyyəti dəhşətli bir yanğın hadisəsinin qarşısının alınmasında yanğınsöndürənlərin köməyinə çatdı.

Bu yanğın hadisəsi neftayırma sənayesində yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasını, texnoloji proseslərdə ən cüzi pozuntulara belə yol verilməməsinin zəruriliyini ön plana çəkdi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev müxtəlif müşavirələrdə dəfələrlə bu hadisəyə münasibətini bildirərək hər bir sahədə, xüsusən də neftayırma sənayesində yanğın təhlükəsizliyi qaydalarına son dərəcə məsuliyyətlə riayət olunmasını vurğulayaraq, bu sahədə proqram xarakterli dəyərli tövsiyələrini verdi.

Heydər Əliyevin ölkəmizdə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan hökuməti respublikada yanğın təhlükəsizliyinin vəziyyətini yaxşılaşdırmaq məqsədilə bir sıra mühüm qərarlar qəbul etdi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ilin mart ayında respublika Nazirlər Sovetinin nəzdində yanğın-texniki komissiya yaradıldı. Bu komissiya yanğın təhlükəsizliyi məsələlərinin kompleks həlli sahəsində sənaye müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsində, yanğından mühafizə işinin təşkilinin yaxşılaşdırılmasında, yanğına qarşı texnikanın yeni, daha səmərəli vasitələrinin sənaye müəssisələrinin yanğından mühafizə təcrübəsinə tətbiq olunmasında, yanğın təhlükəsizliyi qaydalarının kütləvi təbliğ olunmasında mühüm rol oynadı. 1980-ci ilin yekunlarına görə Azərbaycan SSR DİN Yanğından Mühafizə İdarəsi SSRİ-nin müttəfiq respublikaları arasında keçirilmiş yarışda ikinci, 1981 və 1982-ci illərdə isə birinci yerə çıxaraq SSRİ Daxili İşlər Nazirliyi və Dövlət Müəssisələri İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin keçici Qırmızı Bayrağına layiq görüldü.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövründə respublikamızın yanğından mühafizə orqanlarının, onun əməkdaşlarının çətin və şərəfli peşə sahiblərinin xidmətləri daima yüksək qiymətləndirilirdi.

Heydər Əliyev Moskvada rəhbər vəzifələr tutduğu illərdə də ölkəmizdə yanğın təhlükəsizliyinin etibarlı təmin olunmasına qayğısını əsirgəmirdi. Xəzər dənizi akvatoriyasındakı neft və qaz sənayesi obyektlərini yanğın təhlükəsizliyini təmin edən DİN Yanğından Mühafizə İdarəsinin Dəniz Dəstəsinin istismar müddətini bitirmiş yanğın gəmilərinin yeniləri ilə əvəz olunması məsələsi məhz Heydər Əliyevin SSRİ-nin ali hakimiyyət orqanlarındakı nüfuzu sayəsində həll olundu. Ümummilli Liderimizin qayğısı sayəsində Polşada istehsal olunmuş 9 ədəd "Vixr" tipli yanğınsöndürmə gəmisi Azərbaycana gətirildi.

Müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı yanğın təhlükəsizliyi sistemində də dönüş mərhələsinin, inkişafa doğru irəliləyişin başlanğıcını qoydu. Məhz Ümummilli Liderimizin təhsilimizə qayğıları nəticəsində Azərbaycanın yanğın təhlükəsizliyi xidməti milli kadrların hazırlanması probleminin həllinə nail oldu. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 may 1996-cı il tarixli qərarı ilə DİN-nin Yanğından Mühafizə Tədris Mərkəzinin bazasında "Yanğına qarşı mühafizənin təşkili və texnikası" ixtisası üzrə xüsusi orta-ixtisas təhsili verən Bakı Yanğın Texniki Məktəbi yaradıldı. Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin hüquqi təminatı siyasətinin məntiqi nəticəsi və tərkib hissəsi olaraq ölkəmizin yanğın təhlükəsizliyi xidməti öz fəaliyyətini tənzimləyən hüquqi bazaya malik oldu. Beləliklə, müstəqil Azərbaycan Respublikasında insanların həyatının və sağlamlığının qorunması məqsədilə fəaliyyət göstərən yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin hüquqi əsasları müəyyən edildi.

Heydər Əliyevin Azərbaycanın yanğın təhlükəsizliyi xidmətinə, onun çoxsaylı əməkdaşlarına olan qayğısı, etimadı və ehtiramı sayəsində 2002-ci il oktyabrın 5-də Ümummilli Liderimiz tərəfindən imzalanmış sərəncamla 10 oktyabr Yanğınsöndürənlərinin peşə bayramı günü kimi təsis edildi.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə baş verə biləcək təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasını, onların nəticələrinin aradan qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını təmin edən qurumun - Fövqəladə Hallar Nazirliyinin yaradılmasını vacib sayırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin yaradılması və həmin sərəncama əsasən DİN-in tərkibində fəaliyyət göstərən yanğın təhlükəsizliyi qurumlarının yeni yaradılmış nazirliyin tabeçiliyinə verilməsi ümummilli liderimiz Heydər Əliyevin arzularını gerçəkləşdirdi.

Bu gün yanğın təhlükəsizliyi qurumları Fövqəladə Hallar Nazirliyinin tərkibində yeni inkişaf mərhələsinə qədəm qoymaqla peşə və döyüş hazırlığını daim yüksək səviyyədə saxlayaraq sözün həqiqi mənasında insanların təhlükəsiz yaşaması, işləməsi və istirahət etməsi üçün öz vəzifə borclarını layiqincə yerinə yetirirlər. Son illərdə dövlətin həyata keçirdiyi məqsədyönlü siyasətin, həmçinin FHN-in diqqət və qayğısının məntiqi nəticəsi olaraq yanğın təhlükəsizliyi qurumlarının hüquqi, maddi-texniki bazası möhkəmləndirilib və təkmilləşdirilib, yanğın avtomobilləri parkı müasir texnologiyaya cavab verən texnika və avadanlıqlarla təchiz edilib. Çox qısa müddət ərzində Avropanın müxtəlif ölkələrindən ən müasir yanğın avtomobilləri ölkəmizə gətirilib, Dövlət Yanğından Mühafizə Xidmətində rabitə sistemi ən müasir rabitə vasitələri, kompyuter avadanlıqları, digər texniki vasitələrlə təmin olunub. Şəhər və rayonlarımızda yanğından mühafizə qurumları üçün yeni binalar inşa edilib. Tarixi gerçəklik naminə qeyd olunmalıdır ki, son illərdə yanğın təhlükəsizliyi qurumlarının siması onilliklərlə hesablanan zamanda görüləcək işlər səviyyəsində dəyişib. Bütün bunlar isə bilavasitə əhalinin yanğın təhlükəsizliyinin təmin olunmasına daim diqqət və qayğı göstərmiş ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirmək, onun işıqlı ideyalarını həyata keçirmək, arzularını reallaşdırmaq, əməllərini yaşatmaq deməkdir.

***Hikmət Xudiyev,***
***FHN DYMX-nin İctimaiyyətlə əlaqələr və təbliğat sektorunun rəisi daxili xidmət polkovniki, əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru***

# FHN-in rəhbərliyi tərəfindən respublikanın rayonlarında vətəndaşların qəbulu keçiriləcək

***Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov tərəfindən 14 may 2019-cu il tarixində Göyçay şəhərində, Heydər Əliyev Mərkəzinin binasında saat 11:00-dan Göyçay rayonu sakinlərinin və həmin rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulu keçiriləcək. Qəbula gələn vətəndaşların qeydiyyatı 13 may 2019-cu il tarixində Heydər Əliyev Mərkəzinin binasında saat 09:00-dan başlayacaq.***

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin birinci müavini Rəfail Mirzəyev tərəfindən 14 may 2019-cu il tarixində Kürdəmir şəhərində, Dövlət Yanğından Mühafizə hissəsinin inzibati binasında saat 11:00-dan Kürdəmir rayonu sakinlərinin və həmin rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulu keçiriləcək. Qəbula gələn vətəndaşların qeydiyyatı 14 may 2019-cu il tarixində Dövlət Yanğından Mühafizə hissəsinin inzibati binasında saat 09:00-dan başlayacaq.

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Etibar Mirzəyev tərəfindən 14 may 2019-cu il tarixində Ucar şəhərində, Heydər Əliyev Mərkəzinin binasında saat 11:00-dan Ucar rayonu sakinlərinin və həmin rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulu keçiriləcək. Qəbula gələn vətəndaşların qeydiyyatı 14 may 2019-cu il tarixində Heydər Əliyev Mərkəzinin binasında saat 09:00-dan başlayacaq.

Qəbulda yalnız Fövqəladə Hallar Nazirliyinin səlahiyyətlərinə aid müraciətlərə baxılacaq.

Qəbula gələn vətəndaşlar şəxsiyyəti təsdiq edən sənəd təqdim etməlidirlər.

Əlaqə:
tel: +994 (12) 512-01-14
e-mail: info@fhn.gov.az

# FHN-ə işə qəbulla əlaqədar müsabiqədə iştirak etmiş vətəndaşların nəzərinə!

***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə sıravi və kiçik rəis heyətinə, gizir və müddətdən artıq həqiqi hərbi xidmətə qəbulla əlaqədar 30 aprel-2 may 2019-cu il tarixlərində nazirliyin Aran Regional Mərkəzinin əhatə etdiyi rayonlar üzrə Yevlax şəhərində keçirilmiş müsabiqədə iştirak etmiş şəxslərlə bağlı müsabiqə komissiyasının rəyinə dair cədvəlləri təqdim edirik.***

Qeyd edək ki, müsabiqədə müvəffəqiyyət qazanmış şəxslər əlavə olunmuş cədvəldə göstərilən tarixdə tibbi şəhadətləndirmə və sənədləşdirmə üçün FHN-in Tibb Xidmətinin Tibb mərkəzində (ünvan: Bakı şəhəri, Biləcəri qəsəbəsi, R.İsmayılov küç., 124) olmalıdırlar. Tibbi şəhadətləndirmə və sənədləşdirməyə gələn şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tərcümeyi-hal;
- şəxsiyyət vəsiqəsinin əsli və notarial təsdiq edilmiş surəti;
- təhsil haqqında sənədin əsli və notarial təsdiq edilmiş surəti;
- hərbi biletin əsli və notarial təsdiq edilmiş surəti;
- evli olanlar üçün: Nikah haqqında Şəhadətnamənin notarial təsdiq edilmiş surəti;
- valideyn və ya qəyyum olanlar üçün: uşaqlarının Doğum haqqında Şəhadətnaməsinin (qəyyumluq haqqında sənədin) notarial təsdiq edilmiş surəti;
- sağlamlıq haqqında arayış (Forma № 086);
- Vərəm Əleyhinə Dispanserdən arayış;
- Dəri-Zöhrəvi Dispanserdən arayış;
- Ruhi Əsəb Xəstəlikləri Dispanserindən arayış;
- Narkoloji Dispanserdən arayış.

***Əlavə məlumat üçün (012) 512-05-92 telefon nömrəsi vasitəsilə əlaqə saxlamaq mümkündür.***

***FHN-in Aran Regional Mərkəzində (Yevlax şəhəri) işə qəbulla əlaqədar 30 aprel - 2 may 2019-cu il tarixlərində keçirilmiş sənəd qəbulu və müsabiqənin nəticələri barəsində Fövqəladə Hallar Nazirliyinin rəsmi internet səhifəsindən (www.fhn.gov.az) və “Fövqəladə Hallar Nazirliyinin qəzeti”nin rəsmi internet səhifəsindən öyrənmək olar.***

# Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin məlumatı

***Mayın 8-də “Saipem” şirkəti tərəfindən icarəyə götürülmüş “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” qapalı səhmdar cəmiyyətinə məxsus “İsrafil Hüseynov” borudüzən gəmisində texnoloji avadanlıqda yaranan nasazlığın aradan qaldırılması məqsədilə aparılan təmir işləri zamanı partlayışla müşayiət olunan yanğın baş verməsi səbəbindən şirkətin Azərbaycan Respublikası və digər xarici ölkələrin vətəndaşlarından ibarət 14 nəfər əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.***

Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 162.1-ci (texniki təhlükəsizlik və əmək mühafizəsinin başqa qaydalarının pozulması) maddəsi ilə cinayət işi başlanmış, Fövqəladə Hallar Nazirliyinin və prokurorluğun təcrübəli əməkdaşlarından ibarət istintaq qrupu yaradılmışdır.

Hadisə zamanı xəsarət almış şəxslərin təxirəsalınmadan sahilə çıxarılaraq Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilməsi təmin olunmaqla yüksək ixtisaslı həkimlər cəlb edilərək zərərçəkənlərin müayinə və müalicələri Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi nəzarətə götürülmüşdür.

Hazırda Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi, Fövqəladə Hallar Nazirliyi, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin ekspert və mütəxəssislərinin iştirakı ilə hadisənin baş vermə səbəblərinin və sair xüsusatların araşdırılması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Hadisə nəticəsində zərərçəkmiş vətəndaşlardan, eləcə də hadisə ilə bağlı məlumatlı şəxslərdən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin 404-39-00, Fövqəladə Hallar Nazirliyinin “112”, Baş Prokurorluğun 440-78-13 nömrəli “Qaynar xətt” əlaqə mərkəzlərinə zəng etmələri xahiş olunur.

# FHN işçilərinin Həmkarlar İttifaqı 9 May - Qələbə Günü münasibətilə əsgərlərlə görüşub

***Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqı faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirib. Belə ki, İttifaq 9 May - Qələbə Günü münasibətilə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Bərdə rayonunda və Müdafiə Nazirliyinin Ağdam rayonunda yerləşən N saylı hərbi hissələrində əsgərlərlə görüşlər təşkil edib.***





Tədbirlərdə ilk olaraq, Dövlət himni səsləndirilib. Daha sonra FHN işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov çıxış edərək II Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Azərbaycan xalqının rolundan geniş bəhs edib. Natiq qeyd edib ki, Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də müharibənin əvvəlindən axırınadək fəal iştirak edib. Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edilib. Böyük Vətən mübaribəsi illərində faşizmə qarşı mərdliklə döyüşən Azərbaycan oğulları və qızları öz hünərləri ilə əbədi qəhrəmanlıq dastanı yaradıblar. Bu yolda çoxları fədakarlıqları, ölümləri ilə ölümsüzlüyə, əbədiyyətə qovuşublar.

M.İsmayılov, həmçinin, bildirib ki, Böyük Vətən müharibəsi iştirakçılarına böyük diqqət və qayğının göstərilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı “Veteranlar haqqında” Qanunda bu diqqət və qayğının hüquqi əsasları müəyyənləşdirilib. Məhz Ümummilli Liderin xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyəti bərpa olunub, 9 May - Qələbə Günü yenidən dövlət bayramları sırasına daxil edilib, müharibə iştirakçılarının və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılıb.

Natiq vurğulayıb ki, bu gün veteranlara qayğı siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılıb, müharibə veteranları Prezident təqaüdünə layiq görülüb.

Mehman İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun maddi-texniki bazası ən müasir hazırlıq səviyyəsinə qaldırılıb. 2016-cı ilin aprel döyüşlərindəki ordumuzun uğurları bunu bir daha təsdiq edir.

Sonra tədbirlərdə çıxış edən hərbi hissələrin rəhbərləri FHN işçilərinin Həmkarlar İttifaqına öz təşəkkürlər bildirib və belə görüşlərin əsgərlərin xidməti əhval-ruhiyyəsinə müsbət təsir etdiyini qeyd ediblər.

Görüşlərin sonunda FHN işçilərinin Həmkarlar İttifaqı tərəfindən əsgər və zabitlərə bayram sovqatı və xatirə hədiyyələri təqdim olunub.

# Mülki müdafiə qoşunlarında silsilə tədbirlər keçirilib

***Fövqəladə Hallar Nazirliyi Mülki müdafiə qoşunlarının bütün hərbi hissələrində ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı, Böyük Vətən müharibəsində tarixi Qələbənin 74-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilib.***



Mülki müdafiə qoşunlarının “N” saylı hərbi hissəsində Bakı şəhər Mədəniyyət Baş idarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdən öncə iştirakçılar ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Sonra tədbirdə çıxış edən natiqlər ulu öndər Heydər Əliyevin Azərbaycan naminə göstərdiyi misilsiz xidmətlərdən bəhs edib, Böyük Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaətdən, xalqımızın qəhrəmanlıqlarla dolu tarixindən söz açıblar. Qeyd olunub ki, Ümummilli Liderin doğum günü artıq neçə illərdir ki, xalqımız tərəfindən əziz gün kimi qeyd edilir. Müstəqil Azərbaycan Respublikası Ulu Öndərin bəxş etdiyi tərəqqi yolunda inamla irəliləyir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda yeni-yeni nailiyyətlər əldə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderin siyasi xəttini uğurla davam etdirir, milli inkişaf strategiyasını məharətlə həyata keçirir.

Tədbirin bədii hissəsində respublikanın tanınmış sənətçiləri konsert proqramı ilə çıxış edib, şəxsi heyətdə böyük coşqu, sevinc və bayram əhval-ruhiyyəsi yaradıblar.

***FHN-in Mülki müdafiə qoşunlarının Şəxsi heyətlə iş üzrə şöbəsi***

# FHN-in Dövlət Yanğından Mühafizə Xidməti yanğın-taktiki təlim keçirib

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti Heydər Əliyev adına Neft Emalı Zavodunun Modernizasiya-Layihələndirmə ofis binasında “Yanan polimerlərlə birgə quraşdırılmış metal konstruksiyalı binalarda yanğınların söndürülməsi” mövzusunda yanğın-taktiki təlim keçirib.***



Taktiki təlimin keçirilməsində məqsəd Heydər Əliyev adına Neft Emalı Zavodunun Modernizasiya-Layihələndirmə ofis binasında yanğın baş verdikdə texniki heyətin hərəkətlərini, obyekt rəhbərliyinin fəaliyyətini, yanğın zamanı birinci və sonrakı yanğınsöndürmə rəhbəri tərəfindən yanğın yerində kəşfiyyatın aparılmasını, döyüş hərəkətlərinin həlledici istiqamətlərə yönəldilməsini, döyüş əməliyyatlarının aparılması zamanı texniki təhlükəsizlik qaydalarına riayət etmələrini, yanğının söndürülməsinə cəlb olunan şəxsi heyətin ekstremal şəraitlərdə döyüş hərəkətlərinin aparılması qaydalarını, xidmətdə olan işçi heyətin yanğın zamanı ilkin hərəkətlərini məşq etdirmək olub.

“Yanğından mühafizə xidmətində rəis heyətinin taktiki hazırlığı üzrə Təlimat”ın tələblərinə uyğun olaraq təlimdən əvvəl 3 əsas korpusdan ibarət ofis binasının yerləşdiyi ərazinin əməliyyat-taktiki xüsusiyyətləri, mövcud rabitə vasitələri, su təchizatı öyrənilib.

Təlimə cəlb olunmuş yanğın avtomobillərinin texniki silahlarla komplektləşdirilməsi, onların sazlığı və istismar zamanı etibarlılığı yoxlanıldıqdan, zəruri olan digər hazırlıq işləri görüldükdən sonra yanğın taktiki təlimə start verilib və şərti yanğının söndürülməsi üçün müəyyənləşdirilmiş plan üzrə Dövlət Yanğından Mühafizə Xidmətinin Neftayırma Müəssisələri üzrə Yanğından Mühafizə Dəstəsinin qurumları tərəfindən zəruri tədbirlər həyata keçirilib.

Sonda yanğın-taktiki təlim yekunlaşdırılaraq əməkdaşların yanğının söndürülməsi zamanı fəaliyyəti müzakirə olunub. Yanğından mühafizə hissələrinin yanğın-taktiki təlimdə hərəkətləri təhlil edilərək əldə edilmiş müsbət təcrübənin tətbiq olunması, mövcud nöqsanların aradan qaldırılması, həmçinin döyüş hərəkətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilib.

***FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat sektoru***

# Ağsu, İsmayıllı və Şamaxı rayonlarındakı zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı hesabat brifinqi keçirilib

## Dağıntıya məruz qalan evlərin 80-90 faizi fiziki köhnəlməyə məruz qalmış, çiy kərpicdən tikilən evlərdir

***Bu il fevralın 5-də Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülmüş işlərə dair üç aylıq hesabat brifinqi keçirilib.***

AZƏRTAC xəbər verir ki, İsmayıllıda təşkil olunan brifinqdə hər üç rayonun icra hakimiyyətlərinin başçıları təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlər barədə məlumat veriblər. Brifinqdə Fövqəladə Hallar Nazirliyinin və “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri də iştirak ediblər.

Bildirilib ki, episentri İsmayıllı və Ağsu rayonlarının ərazisində olan zəlzələ nəticəsində Ağsu, İsmayıllı və Şamaxı rayonlarında 748 ev qəzalı vəziyyətə düşüb, yüzlərlə evə, eləcə də sosial və infrastruktur obyektlərinə müxtəlif dərəcədə ziyan dəyib. Xoşbəxtlikdən insan itkisi qeydə alınmayıb.

Hadisənin səhəri günü dövlətimizin başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşüb, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirib. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini verib.

Təbii fəlakətdən dərhal sonra Fövqəladə Hallar Nazirliyinin müvafiq komissiyası yerlərdə vətəndaşlar tərəfindən evlərinin qəzalı vəziyyətə düşməsi ilə bağlı edilən müraciətlərin araşdırılmasına başlayıb.

Qeyd olunub ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı əsasında “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri və könüllüləri Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələdən zərərçəkmiş evlərin sakinləri ilə görüşərək, onların problemlərinin həlli istiqamətində dövlət qurumları ilə birlikdə sıx işləyib, insanlara mənəvi dəstək göstəriblər.

Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadları dövlətimizin başçısının müvafiq sərəncam və tapşırıqlarına əsasən aradan qaldırılmaqdadır.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bildirib ki, zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı yaradılmış komissiyaya 66 yaşayış məntəqəsindən 1272 müraciət daxil olub və həmin evlərə baxış keçirilib. Onlardan 344 ev qənaətbəxş hesab olunub, 455 evdə təmirə, 344 evdə bərpaya ehtiyac duyulduğu barədə qərar verilib. 114 evin isə qəzalı olduğu müəyyənləşib. Hazırda qəzalı evlərdən 76-nın tikintisi aparılır. Bundan başqa, yerlərdə sosial obyektlərə də baxış keçirilib, 1 məktəb binasının, 1 uşaq bağçasının və 2 inzibati binanın da qəzalı olması müəyyənləşib.

Hazırda “Regional İnkişaf” İctimai Birliyi tərəfindən qəzalı vəziyyətdə olan Keyvəndi və Diyallı kənd tibb məntəqələrinin tikintisinə başlanılıb. Eyni zamanda, 320 şagird yerlik Gəraybəyli tam orta məktəbinin, 40 şagird yerlik Kələzeyvə ibtidai məktəbinin, 40 yerlik Quşencə uşaq bağçasının tikintisi nəzərdə tutulub.

Təbii fəlakətlə bağlı rayon üzrə vətəndaşlardan, ümumilikdə, 2460 evlə bağlı müraciətin ünvanlandığını deyən Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev isə qeyd edib ki, müraciətlərin araşdırılması nəticəsində 350 ev qəzalı sayılıb, 435 evin bərpaya, 1601 evin təmirə ehtiyacı olduğu müəyyənləşib. 74 evin vəziyyəti qənaətbəxş olub. Hazırda rayonda 162 evdə tikinti işləri aparılır.

Zəlzələ nəticəsində rayonda ziyan dəymiş 10 sosial obyektə baxış keçirilib, onlardan 8-nin qəzalı, 2-nin isə bərpaya ehtiyacı olduğu müəyyən edilib. Bico və Ərəbuşağı kənd tibb məntəqələrinin, Arakənd kənd orta məktəbinin və Pirhəsənli kənd körpələr evi-uşaq bağçasının yenidən tikilməsi nəzərdə tutulur.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov da üç ayda görülən işlər barədə məlumat verərək bildirib ki, təbii fəlakətdən keçən dövrdə vətəndaşların müraciəti əsasında 5584 evə baxış keçirilib. Bu evlərdən 284-ü qəzalı hesab edilib və artıq onlardan 3-nün inşası başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Fövqəladə Hallar Nazirliyinin müvafiq komissiyası tərəfindən 1274 evin bərpaya, 2212 evin təmirə ehtiyacı olduğu bildirilib, 1814 evin vəziyyəti qənaətbəxş qiymətləndirilib. Hazırda 112 evdə tikinti işləri aparılır.

Zəlzələnin fəsadlarının aradan qaldırılması ilə yanaşı, Şamaxıda təhsil, səhiyyə və mədəniyyət sahəsində infrastrukturun yenilənməsi istiqamətində də mühüm işlər görülür. Həmçinin “Regional İnkişaf” İctimai Birliyi tərəfindən rayonda bir sıra sosial obyektin tikintisi nəzərdə tutulub.

Hər üç rayonun icra hakimiyyətlərinin başçıları dağıntıya məruz qalan evlərin 80-90 faizinin fiziki köhnəlməyə məruz qalmış, çiy kərpicdən tikilən evlər olduğunu bildiriblər. Qeyd olunub ki, hazırda tikintisi aparılan evlər bütün texniki parametrlərə cavab verir. Qəzalı kimi qeydə alınan bütün evlərin inşası, bərpası həyata keçiriləcək. Bu işlərin ilin sonunadək həyata keçirilməsi nəzərdə tutulur. Bildirilib ki, bəzi hallarda məhz zəlzələ zamanı qəzalı hala düşən evlərlə bağlı olmayan müraciətlər də komissiyalara daxil olur. Həmin müraciətlərin araşdırılması isə bilavasitə zəlzələdən zərərçəkənlərin müraciətlərinin baxılmasının ləngiməsinə səbəb olur.

Brifinqdə, həmçinin bölgədə olan tarixi-mədəniyyət abidələrinin təbii fəlakətdən zərər görmədiyi diqqətə çatdırılıb.

# Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının milli qürurudur

***Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə "Heydər Əliyev məktəbinin lektoriyası"nın növbəti məşğələsi keçirilib.***

Lektoriyanın qonağı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı olub.

Əvvəlcə, tədbir iştirakçıları Akademiyanın həyətində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyaraq dahi rəhbərin əziz xatirəsini ehtiramla yad ediblər.

Akademiyanın akt zalında keçirilən tədbirdə Dövlət himninin səslənməsindən sonra ümummilli lider Heydər Əliyev haqqında sənədli film nümayiş olunub.

Tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi general-mayor Baba Salayev Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışaraq bildirib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin fəaliyyət dövrü Azərbaycan tarixinin qızıl səhifələridir. Onun əməlləri, bütün fəaliyyəti bir istiqamətə yönəlib: Azərbaycana xidmət etmək. Akademiyanın rəisi qeyd edib ki, Ümummilli Lider adını xalqa xidmət yolunda gördüyü əvəzsiz işlərlə Azərbaycan tarixinə ən böyük azərbaycanlı kimi həkk etdirib.

Toplantıda çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı müstəqil dövlətimizin banisi Heydər Əliyevin tarixi xidmətlərindən danışaraq bildirib ki, Ulu Öndər bütün həyatını və fəaliyyətini xalqımıza, onun tərəqqisinə və xoşbəxtliyinə həsr edib. O, Ümummilli Liderin zəngin dövlət idarəçiliyi təcrübəsinin, siyasi irsinin əhəmiyyətindən bəhs edərək dünya şöhrətli dahi rəhbərin ideyalarının əbədi yaşayacağını bildirib.

***

***Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə "Heydər Əliyev məktəbinin lektoriyası"nın növbəti məşğələsi keçirilib. Lektoriyanın qonağı Azərbaycan "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik Şamil Süleymanov olub.***

Tədbiri giriş sözü ilə açan Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi general-mayor Baba Salayev Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışıb. Akademiyanın rəisi ümummilli lider Heydər Əliyevin ordu quruculuğuna verdiyi böyük töhfələrdən söz açıb, xalqımızın təhlükəsizliyinin hərtərəfli təmin olunması istiqamətində gördüyü işlərin əhəmiyyətindən danışıb.

Azərbaycan "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik Şamil Süleymanov ulu öndər Heydər Əliyevin şərəfli ömür yolundan danışaraq, Onun Azərbaycan dövləti və xalqı qarşısındakı əvəzsiz xidmətləri barədə geniş məlumat verərək xatirələrini bölüşüb.

Ş.Süleymanov müəllifi olduğu kitabları Akademiyaya hədiyyə edib.

Akademiyanın rəisi general-mayor Baba Salayev də öz növbəsində Şamil Süleymanova təhsil ocağı adından xatirə hədiyyəsi təqdim edib.

# Maarifləndirmə tədbirləri davam etdirilir

***FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti Bakı Regional Mərkəzi və 2-ci ərazi DYNİ-nin əməkdaşları ilə birgə Nəsimi rayonundakı İlyas Əfəndiyev adına Elitar gimnaziyada maarifləndirmə tədbiri keçirib.***

Tədbirdə "Yanğın təhlükəsizliyi qaydalarına riayət edin", "Dəm qazı təhlükəsi", "Məişətdə yanğın təhlükəsizliyi", "112 qaynar xəttinə nə vaxt zəng etməli" adlı video-çarxlar nümayiş etdirilərək yanğın təhlükəsizliyi qaydaları haqqında ətraflı məlumat verilib, ərazinin daim təmiz vəziyyətdə saxlanılması, normativ sənədlərə uyğun ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməsi, yanğın zamanı insanların binadan köçürülməsi (təxliyə) planlarının və hər bir sinif otağı üçün yanğın təhlükəsizliyi qaydalarına aid yaddaş kitabçalarının tərtib olunaraq müvafiq yerlərdən asılması, pilləkən qəfəsliklərində əlavə otaqların quraşdırılmasının yolverilməzliyi, yanğına qarşı su təchizatına (hovuzlar, kəmərlər, çənlər, hidrantlar) qayğı ilə yanaşılmasının vacibliyi qeyd olunub.

Tədbirdə ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani olaraq nümayiş etdirilib, yanğına qarşı təbliğat işində istifadə olunması üçün "Vətəndaşların nəzərinə", "Yanğın zamanı davranış qaydaları" mövzularında yaddaş vərəqələri, bukletlər paylanıb.

***

***Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi Gədəbəy rayonu R. İsmayılov adına 2 nömrəli kənd tam orta məktəbinin kollektivi ilə "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri təşkil edib.***

Tədbirdə Gəncə Regional Mərkəzinin əməkdaşları və məktəbin müəllim-şagird kollektivi iştirak edib.

Toplantının keçirilməsində məqsəd məktəbin kollektivinə müxtəlif xarakterli fövqəladə halların yaranma səbəbləri, onlardan qorunma üsulları haqqında biliklərin aşılanması olub.

Tədbirdə zəlzələ, "112" qaynar telefon xətti, dəm qazı, yanğınlar, odsöndürən balonlardan istifadə qaydaları haqqında geniş məlumat verilib, mövzulara aid slaydlar, videoçarxlar nümayiş olunub.

# Mülki müdafiə kurslarında dinləyicilərə əhalinin baş verə biləcək fövqəladə hadisələrdən mühafizəsi üsulları və davranış qaydaları haqqında ətraflı məlumat verilib

***Fövqəladə Hallar Nazirliyininn Cənub Regional Mərkəzində "2019-cu il üçün Mülki müdafiə kurslarının dinləyicilərlə komplektləşdirmə planı"na əsasən "Rabitə manqalarının komandirləri" kateqoriyası üzrə mülki müdafiə kursu təşkil edilib.***

Kursda iştirak edən dinləyicilərə əhalinin baş verə biləcək fövqəladə hadisələrdən mühafizəsi üsulları və davranış qaydaları, idarəetmə orqanlarının fəaliyyəti və əhalinin mühafizəsi sahəsindəki roluna dair məşğələlər keçirilib.

Məşğələlərdə, həmçinin, ilk tibbi yardımın göstərilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə qaydaları, rabitə manqa komandirlərinin mülki müdafiə qüvvə və vasitələrinin idarə olunması üzrə bacarıqlarının təkmilləşdirilməsi, habelə təsdiq olunmuş proqram əsasında mülki müdafiə və fövqəladə hadisələrdən mühafizə sahəsində vəzifələrin yerinə yetirilməsi ilə bağlı məlumatlar verilib.

Kursların sonunda proqramı müvəffəqiyyətlə başa vurmuş dinləyicilərə müvafiq şəhadətnamələr təqdim edilib.

***

***Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində "2019-cu il üçün Mülki müdafiə kurslarının dinləyicilərlə komplektləşdirmə planı"na əsasən, "Yanğınsöndürmə manqa komandirləri" kateqoriyası üzrə mülki müdafiə kurslarında idarə, müəssisə və təşkilatlarda yaradılmış yanğınsöndürmə manqalarının komandirləri iştirak ediblər.***

Toplantıda müəssisədə baş vermiş və ya baş verə biləcək fövqəladə hadisələrdən mühafizə üsulları, yanğın hadisəsi zamanı davranış qaydaları, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə qaydaları, mülki müdafiə qüvvə və vasitələrinin idarə olunması üzrə bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı məlumatlar verilib.

Sonda proqramı müvəffəqiyyətlə başa vurmuş dinləyicilərə müvafiq şəhadətnamələr təqdim olunub.

# Meşə və meşə zolaqlarında yanğın təhlükəsizliyi

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Gəncə regional Dövlət Yanğın Nəzarəti İdarəsi Şəmkir rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşları ilə birgə Şəmkir rayonu, Çənlibel kənd ərazisində yerləşən Qaramyolu meşəsində Şəmkir rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin işçilərinə yanğın təhlükəsizliyi mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Tədbirdə yanğın təhlükəsizliyi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub, həmçinin, meşə və meşə zolaqlarında yanğın təhlükəsizliyinin təmin olunması ilə əlaqədar müvafiq təşkilatlar qarşısında məsələlər qaldırılıb.



# Fövqəladə hadisələrin qarşısının alınması məqsədilə lazımi qabaqlayıcı tədbirlərin görülməsi daim nəzarətdə saxlanılmalıdır

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti təbliğat xarakterli növbəti maarifləndirmə tədbirini Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətində keçirib.***

Tədbirdə Sərhəd Nəzarətinin yanğın təhlükəsizliyi ilə bağlı görülən işlərindən danışılaraq qarşılıqlı əməkdaşlıq şəraitində yanğından mühafizənin təmin edilməsi, fövqəladə hadisələrin qarşısının alınması məqsədilə lazımi qabaqlayıcı tədbirlərin görülməsinin daim nəzarətdə saxlanılması, ştatlı və ştatdankənar yanğınsöndürmə dəstələrinin fəaliyyətinin vacibliyi vurğulanıb. Elektrik və qaz təsərrüfatından istifadə zamanı qüvvədə olan normativ sənədlərin tələblərinə riayət olunmasından, yanğınların söndürülməsində mühüm rol oynayan su mənbələrinin vəziyyətindən, şəxsi heyətin fövqəladə hallar zamanı davranış qaydalarından, həyata keçirilməsi zəruri olan təhlükəsizlik tədbirlərindən bəhs edilib, suallar cavablandırılıb.

Xidmət tərəfindən hazırlanmış "Vətəndaşların nəzərinə", "Yanğın zamanı davranış qaydaları" mövzusunda yaddaş vərəqələri tədbir iştirakçılarına paylanıb və "İnzibati binaların yanğın təhlükəsizliyi" adlı yaddaş kitabçası rəhbərliyə verilib.

# "Kiçikhəcmli gəmilərin təhlükəsiz istismarı" mövzusunda maarifləndirmə tədbiri təşkil edilib

***Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti FHN-in Bakı Regional Mərkəzinin əməkdaşları ilə Pirallahı rayonunun Gürgan qəsəbəsində kiçikhəcmli gəmi istifadəçiləri üçün maarifləndirmə tədbiri keçirib.***

"Kiçikhəcmli gəmilərin təhlükəsiz istismarı" mövzusunda keçirilən təbdirdə kiçikhəcmli gəmi istifadəçilərinə bu tip gəmilərin təchizat avadanlıqlarının minimum normalarının tələbləri və təhlükəsiz istismar qaydaları barədə ətraflı məlumat verilib. Həmçinin, həmin gəmilərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınması, texniki baxışdan keçirilməsi və gəmi sürmək hüququ üçün sürücülük vəsiqələrinin alınmasının vacibliyi diqqətə çatdırılıb.



Eyni zamanda kiçikhəcmli gəmi sürücüləri fərdi xilasedici vasitələr və həmin vasitələrdən istifadə qaydaları haqqında da maarifləndirilib.

Sonda tədbir iştirakçılarına maarifləndirmə xarakterli broşürlər paylanılıb.

# FHN-in əməkdaşı çempionatda uğur qazanıb




***4-5 may tarixlərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Kung-Fu Federasiyasının birgə təşkilatçılığı ilə Bakı şəhərində Sərhədçi İdman Olimpiya Kompleksində Kung-Fu üzrə XXVII Azərbaycan çempionatı keçirilib.***

Çempionatda 41 idman klubunu təmsil edən 500-dən çox idmançı iştirak edib. Yarışda Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşı kiçik çavuş Toğrul Mikayılov 65 kq çəki dərəcəsində rəqiblərinə qalib gələrək 1-ci yerə layiq görülüb.

## Fövqəladə Hallar Nazirliyi xəbərdarlıq edir: Dəm qazı təhlükəsi



Dəm qazı təhlükəsi ilə bağlı görülən maarifləndirmə işləri bəhrəsini versə də, yenə də təhlükəsizlik qaydalarına biganə yanaşanlar var.




**Təhlükəsizliyimiz üçün bir daha xatırladaq:**

**Dəm qazının yaranmasının əsas səbəbləri nasaz və standartlara uyğun olmayan qaz cihazları, işlək vəziyyətdə olmayan ventilyasiya sistemi və tüstü bacalarıdır.**

**Odur ki:**

- mənzildə istifadə etdiyimiz qaz cihazları dövlət standartları və təhlükəsizlik tələblərinə cavab verməli, mütləq uyğunluq sertifikatı olmalıdır;
- qaz cihazı istifadə olunan otağın, mətbəxin və ya hamamın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalıdır;
- qaz cihazından istifadə etdiyimiz qapalı yerdə mütləq şəkildə havaçəkən sistem işləməli, nəfəslik açıq olmalıdır;
- mütləq hamamda ventilyasiya borusu, qapının aşağı hissəsində dəliklər olmalıdır! Hamamı isti saxlamaq üçün bunları bağlamaq olmaz!
- tüstü bacalarını, ən azı, ildə iki dəfə təmizlətməliyik! Bu məqsədlə, mənzil kommunal istismar sahələrinə və ya bacaların təmizlənməsi ilə məşğul olan xüsusi lisenziyalı özəl şirkətlərə müraciət edilməlidir.

**Yadda saxlayın!** Dəm qazı iysizdir, hiss edilmir! Amma bundan zəhərlənmənin əlamətlərini hiss edə bilərik: baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı dərhal təmiz havaya çıxardırıq, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad edirik, təcili tibbi yardım çağırırıq.



**Unutmayaq:** Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

*Fövqəladə Hallar Nazirliyi*



## "112" / "101" QAYNAR TELEFON XƏTTİNƏ BU HALLARDA MÜRACİƏT ETMƏK OLAR:

- *texnogen qəzalar və təbii fəlakətlər baş verdikdə; yanğın baş verdikdə və ya yanğın törədə biləcək hallar yarandıqda;*
- *uşaqlar, yaşlı və ya xəstə insanlar qapı arxasında və ya hər hansı köməksiz vəziyyətdə qaldıqda;*
- *ağır yol-qəza hadisələri baş verdikdə;*
- *tikintidə və sənaye müəssisələrində qəzalar baş verdikdə və ya ağır nəticələrə gətirib çıxara biləcək hallar müşahidə edildikdə;*
- *su hövzələrində xilasetmə işləri ilə bağlı köməyə ehtiyac yarandıqda;*
- *radioaktiv, kimyəvi və digər zəhərli maddələr və ya onların daşınması üçün istifadə olunan konteynerlər, habelə, partlayıcı maddələr və silah-sursat aşkar olunduqda və ya itirildikdə;*
- *digər qəzalar zamanı köməyə ehtiyac yarandıqda (meşədə azdıqda, qayıqla dənizin dərinliklərinə getdikdə və s.);*
- *istisna hallarda digər xidmətlərlə (102, 103, 104) əlaqə yaratmaq mümkün olmadıqda.*

✓ **"112"/ "101" qaynar telefon xəttinin operatorları 24 saat ərzində (fasiləsiz) daxil olan məlumatları qəbul edir və tədbirlər görülməsi üçün müvafiq strukturları xəbərdar edir.**

✓ **"112"- yə respublikanın bütün şəhər və rayonlarından sabit telefon şəbəkəsi (ATS) telefonlarından, bütün növ taksafonlardan, GSM ("Azercell ", "Bakcell", "Nar Mobile") və CDMA tipli mobil telefonlardan ödənişsiz zəng etmək olar.**

✓ **"112" qaynar telefon xəttinin xidmətindən Azərbaycan Respublikasının ərazisində olan bütün şəxslər, o cümlədən "Rouminq" xidmətindən istifadə edən xarici ölkə vətəndaşları istifadə edə bilərlər.**

✓ **"112"/ "101" qaynar telefon xəttinə zəng etməklə baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq, qəzaya düşən insanları ölümdən xilas etmək, əzablarını xeyli yüngülləşdirmək, maddi itkiləri isə azaltmaq mümkündür.**

✓ **"112"/ "101"-ə zəng edən şəxs hadisə və insidentin yeri barədə dəqiq və ətraflı məlumat verməlidir.**

Təsisçi: Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

Həftəlik ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1033 Bakı şəhəri, Əliyar Əliyev küçəsi, 3
Tel: 566-86-70
566-86-74
566-86-79
Faks: 566-86-71

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi 1873

ABB Nəsimi filialı
Kodu: 805614 VÖEN: 9900001841
Müxbir hesab: 0137010002944
S. W. İ. F. T. Bik:İBAZAZ2X
H/h N-si: 33308019949711933207
VÖEN: 1400976751

"Fövqəladə Hallar Nazirliyinin qəzeti" -nin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "CBS Polygraphic Production" nəşriyyatında çap edilmişdir
İndeks 0572
Tiraj 1 024